


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 216 (21.368)

4 noyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təltifləri haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətlərinə görə:

Cabbarov Cabir Qulam oğlu

Hüseynova Səriyyə Yaşar qızı

İsmayılov Ədalət Qadir oğlu

Kəngərli Gülüsüm Həsən qızı

Qarayeva Səkinə Əvəz qızı

Quliyev Lətif İman oğlu

Sadiqov Zahir Abdulla oğlu

Səfərova Kəmalə Elxan qızı – **“Rəşadətli əməyə görə”** nişanı;

“Tarixi mənbələrdə Nuh peyğəmbər” və “Naxçıvan – Şərur el yallıları” kitablarının müəllifləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin pul mükafatı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 noyabr 2015-ci il*

## Məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzində yeni avadanlıqlar quraşdırılmışdır





*Noyabrın 3-də məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzində quraşdırılan yeni avadanlıqlara baxış olmuşdur.*

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq, ötən il Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmişdir. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada distant təhsilə keçid istiqamətində həyata keçirilən tədbirlərin və bu sahədə yeni texnologiyaların tətbiqinin bundan sonra da davam etdirilməsi, eləcə də mərkəzin imkanlarının artırılması barədə tapşırıqlar vermişdir. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi Çin Xalq Respublikasının “Huawei” şirkəti ilə birlikdə Distant Tədris Mərkəzində 70 min ABŞ dolları dəyərində yeni avadanlıqlar quraşdırmış, nəticədə, 150 istifadəçi yeri yaradılmışdır. Bu da daha çox şagirdin videobağlantı vasitəsilə məşğələdən tədris prosesinə qoşulmasına imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov qeyd etmişdir ki, “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”na uyğun olaraq, muxtar respublikada məhdud fiziki imkanlı uşaqların təhsilə cəlbi diqqət mərkəzində saxlanılır. Ötən il məhdud fiziki imkanlılar üçün Distant Tədris Mərkəzində yeni tədris sinfi yaradılmış, elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlar quraşdırılmışdır. Həmçinin muxtar respublikada bu kateqoriyadan olan uşaqlar məktəbli forması və ləvazimatları ilə təmin olunmuş, onların yaşadığı mənzillərdə asinxron rəqəmsal abunəçi avadanlığı, noutbuk və veb-kameralar qoyulmuşdur. Mərkəzdə çalışan 4 müəllimə, eləcə də uşaqların valideynlərinə sistemdən istifadə qaydalarının öyrədilməsi məqsədilə kurs keçirilmişdir. Bu il quraşdırılan yeni avadanlıqlar mərkəzin imkanlarını genişləndirmiş, yeni qrup yaradılmışdır. Hazırda mərkəzdən 22 məhdud fiziki imkanlı şagird istifadə edir.

“Huawei” şirkətinin nümayəndəsi Zhou Jibo təmsil etdiyi şirkət tərəfindən Naxçıvanda elektron təhsil sahəsində görülən işlərdən danışmış, şirkətin gələcəkdə də bu istiqamətdə həyata keçirilən layihələrdə yaxından iştirak etməyə hazır olduğunu bildirmişdir.

Baxış zamanı qeyd olunmuşdur ki, şagirdlər videobağlantı vasitəsilə keçilən dərsləri dinləmək və müəllimlərlə birbaşa əlaqə saxlamaq imkanına malikdirlər. Tədris sinfindəki interaktiv lövhə elektron dərsliklərdən və digər multimedia tədris avadanlıqlarından istifadəyə imkan verir. Bu da şagirdlərin daha çox biliklərə yiyələnməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Valideynlər yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildirmiş, Distant Tədris Mərkəzində yeni avadanlıqların qurulmasını sağlamlıq imkanları məhdud uşaqlara göstərilən növbəti qayğı kimi dəyərləndirmişlər.

**“Şərq qapısı”**

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında 1990-1993-cü illərdə həyata keçirilən demokratik dövlət quruculuğu prosesi bütün Azərbaycana nümunə olmuşdu. Xalqa, Vətənə sədaqətlə xidmətin, qırılmaz tellərlə bağlılığın nümunəsi olan dahi şəxsiyyət üç tərəfdən düşmən hücumuna məruz qalan blokada vəziyyətindəki Naxçıvanın müdafiə qabiliyyətini gücləndirməklə yanaşı, həm də müstəqil dövlətimizin gələcək inkişaf strategiyasını müəyyənləşdirən tarixi addımlar atmışdı.***



Bu fikirlər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində “Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda Naxçıvan Tibb Kolleci tələbələrinin iştirakı ilə keçilən növbəti açıq dərsdə səsləndirildi.

Heydər Əliyev Muzeyinin əməkdaşı Hicran Bədəlova ümummilli liderimizin xalqımız qarşısındakı tarixi xidmətlərindən danışaraq bildirdi ki, ölkəmizin son 40 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi məhz xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərlik etdiyi dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bildi, ölkənin gələcək uğurlu inkişaf strategiyasını müəyyən etdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olundu. Sovet dövründə, milli dövlətçilik anlayışının yasaq olduğu illərdə ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycan xalqının mənlik şüurunda “milli maraqlar” anlayışı dərindən kök saldı. Ötən əsrin 70-80-ci illərində həyata keçirilən tədbirlər 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə nəticələndi.

Vurğulandı ki, ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gəlməklə respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə xalqımızın çoxəsrlik tarixinə möhtəşəm hadisə kimi, Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi həkk olundu. Çünki həmin gündən sonra Azərbaycanın hüquqi-siyasi və sosial-iqtisadi inkişafı, vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyət həyatının müxtəlif sahələrinin tərəqqisi istiqamətində ardıcıl işlər görüldü, aparılan islahatlar nəticəsində yalnız ölkəmizdə deyil, regionumuzda da çox böyük müsbət dəyişikliklər, mütərəqqi yeniliklər baş verdi.

“Ulu öndərin milli dövlətçilik konsepsiyası müstəqil dövlətçiliyimizin bundan sonrakı inkişafının bütün mərhələlərini əhatə edəcək qədər uzaqgörən və bəşəridir”, – deyən Hicran Bədəlova qeyd etdi ki, elə buna görə də prezident seçkilərində, eyni zamanda parlament seçkilərində xalqımız həmişə Heydər Əliyev siyasi xəttini yekdilliklə dəstəklədi, bununla həm əbədi liderinə qədirbilənliklə vəfa borcunu göstərdi, həm də Heydər Əliyev yolu ilə gələcəyə doğru getməkdə qətiyyətli olduğunu sübut etdi. Çünki Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün oldu. Ulu öndər öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanındı, Azərbaycan xalqının ümummilli liderinə çevrildi.

**Rauf ƏLİYEV**

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, bu ilin yanvar-oktyabr ayları ərzində nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 119 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.

Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyevin sözlərinə görə, operativ nəzarət tədbirləri zamanı 26 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 35 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergi ödəyicisində 1 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 19 vergi ödəyicisinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 23 vergi ödəyicisinin xüsusi razılıq tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olması, 8 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib. Bundan başqa keçirilən nəzarət tədbirləri zamanı 7 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu məlum olub və həmin şəxslər barəsində qanuna müvafiq tədbirlər görülüb. Aparılan operativ nəzarət işləri zamanı tərtib edilən 14472,0 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin tamamilə büdcəyə ödənilməsi təmin edilib. Bəhs olunan dövrdə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 11 vergi ödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidə zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 38021,2 manat dövriyyə artımına nail olunub. Bu da bir vergi ödəyicisinə bir obyekt üzrə orta hesabla ay ərzində 69,1 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilən “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın uğurlu icrası muxtar respublikada əkinçiliyin inkişafına öz təsirini göstərmişdir.*

## Muxtar respublikada 14 min hektardan çox sahədə payızlıq taxıl əkilib

Son illər dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən torpaq mülkiyyətçilərinə maliyyə və texniki dəstəyin göstərilməsi kənd təsərrüfatı məhsullarının istehsalını xeyli artırmışdır. Əsas strateji məhsul hesab olunan taxıl əkininin genişləndirilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 1 noyabr 2015-ci il tarixə muxtar respublikada payızlıq taxıl əkini üçün 19 min 876 hektar sahədə şum qaldırılmış, 14 min 118 hektar sahədə payızlıq taxıl səpini aparılmışdır. Şum aparılmış sahələr ötən ilin müvafiq dövrü ilə müqayisədə 103,3 faiz çoxdur. Səpin aparılmış sahələrin 12 min 86 hektarını buğda, 2032 hektarını isə arpa əkini təşkil edir.

Hazırda payız əkini davam etdirilir.

**Xəbərlər şöbəsi**

*Regionların inkişafı Azərbaycanda uğurla və əzmkarlıqla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası genişmiqyaslı quruculuq tədbirlərinin həyata keçirilməsinə, aqrar sahədə böyük nailiyyətlərin əldə edilməsinə, kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına və rifahının yaxşılaşdırılmasına təkan verib. Bütün bölgələr kimi, Culfa rayonu da son 20 ildə həyata keçirilən tədbirlər nəticəsində nəinki muxtar respublikanın, hətta Azərbaycanın inkişaf etmiş bölgələrindən birinə çevrilib.*


Culfa şəhəri

# Culfa rayonu

## Hər addımda tərəqqi, hər sahədə uğur var

### *Culfa rayonunun yeni siması: keçmişə və bu günə qısa ekskurs*

Bu gün Culfa rayonu inkişafının yüksəliş dövrünü yaşayır. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib. Rayonda 1996-cı ildən 1 oktyabr 2015-ci il tarixədək tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilən obyektlərin sayı görülən işlərin miqyasını və əhəmiyyətini gözlər önünə sərir. Belə ki, bəhs olunan dövrdə rayonda 7036 şagird yerlik 19 ümumtəhsil məktəbi, 2 musiqi məktəbi, 2 uşaq bağçası, 5 məktəbdənkənar müəssisə, 23 səhiyyə obyekti, 11 mədəniyyət müəssisəsi üçün yeni bina, 15 kənd mərkəzi istifadəyə verilib. Bütün bu adıçəkilən obyektlər ən müasir avadanlıqlarla təchiz edilib. Rayonda həyata keçirilən tədbirlər gələcəyimiz olan uşaqların yaxşı təhsil almasına, sağlam böyüməsinə, rayon sakinlərinin rahat yaşamasına və asudə vaxtının səmərəli keçirilməsinə, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına hədəflənib. Bir faktı diqqətə çatdırmaq yerinə düşər ki, 2002-ci ildə rayonda əsas kapitala yönəldilmiş investisiyaların həcmi cəmi 391 min manat idisə, 2015-ci ilin yanvar-sentyabr aylarında bu rəqəm 24 milyon 720 min manat olub. Rəqəmlərdən də göründüyü kimi, əsas kapitala qoyulmuş investisiyaların həcmi 2002-ci ilə nisbətdə 63,3 dəfə artıb. Əgər 2002-ci ildə əsas kapitala qoyulmuş investisiyanın 351 min manatı tikinti-quraşdırma işləri üçün ayrılmışdısa, 2015-ci ilin yanvar-sentyabr aylarında bu rəqəm 22 milyon 616 min manata çatdırılıb. Bu da onu göstərir ki, müqayisə edilən dövrdə tikinti-quraşdırma işlərinə yönəldilən investisiyanın həcmi 64,5 dəfə artıb.


Gal kəndi

### *Rayonda sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir*

Qeyd etmək yerinə düşər ki, göstərilən dövlət dəstəyi nəticəsində son illərdə rayonda işgüzar mühit formalaşıb, sahibkarlıq fəaliyyətinin miqyası daha da genişlənib. Rayonda infrastruktur layihələrinin həyata keçirilməsi nəinki Culfa şəhərində, hətta ən ucqar kəndlərdə belə, sahibkarlığa meyilləri gücləndirib. İstehsal və xidmət sahələrinin dinamik və effektiv fəaliyyəti bərpa edilib, sənaye potensialı əhəmiyyətli şəkildə gücləndirilib. 1996-cı ildən ötən müddət ərzində rayonda ən müasir texnologiyaların tətbiq olunduğu beynəlxalq tələblərə cavab verə bilən rəqabətqabiliyyətli və ixracyönümlü yeni müəssisələr yaradılıb. Əgər 2002-ci ildə rayonda cəmi 1 milyon 81 min manatlıq sənaye məhsulu istehsal olunmuşdusa, 2015-ci ilin yanvar-sentyabr ayları ərzində bu göstərici 6 milyon 17 min manata çatdırılıb. Müqayisədən də göründüyü kimi, rayonda sənaye məhsulunun istehsalında böyük irəliləyişlər var. Hazırda rayonda 23 istehsal müəssisəsi fəaliyyət göstərir.


Əbrəqunus kəndi

### *Aqrar sahədəki göstəricilər qazanılan uğurlardan xəbər verir*

Rayonun kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, baytarlıq xidmətinin fəaliyyətinin ən yüksək səviyyəyə çatdırılması, lizinq xidmətlərindən istifadə olunmasına şərait yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı məhsulları istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olub. Ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələrinin inkişaf etdirilməsi, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin daha da yaxşılaşdırılması qazanılan uğurları da bərabərində gətirib. Təkcə bir fakta diqqət yetirmək yerinə düşər ki, 2000-ci ildə rayonda cəmi 3734 hektar sahədə əkin həyata keçirilmişdirsə, 2015-ci ildə əkin həyata keçirilən ərazilərin sahəsi 7718 hektara çatdırılıb. 2000-ci ildə rayonda 1996 hektarda dənli və dənli-paxlalılar, 1703 hektar taxıl, 126 hektar kartof, 370 hektar tərəvəz, 54 hektar ərazidə isə ərzaq üçün bostan bitkiləri əkilmişdi. 2015-ci ildə isə dənli və dənli-paxlalılar əkinləri 5488, taxıl əkinləri 4982, kartof əkinləri 386, tərəvəz əkinləri 487, ərzaq üçün bostan bitkiləri 129 hektarda aparılıb. Bu da onu göstərir ki, müqayisə edilən dövr ərzində rayon üzrə cəmi əkin aparılan ərazilərin miqyasında böyük artım əldə edilib. Sözsüz ki, görülən işlər bu sahədə məhsul istehsalına da öz müsbət təsirini göstərib.

Aqrar sahənin inkişafı, keyfiyyətli yem məhsullarının tədarükü kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın da inkişafına təkan verib. Kəndlərdə baytarlıq xidmətlərinin təşkili, baytarlıq xidmətləri üçün infrastruktur obyektlərinin yaradılması və lazımi avadanlıqlarla təchiz edilməsi, heyvanlar arasında yayılan xəstəliklərin qarşısının alınması, ümumilikdə, heyvandarlığın inkişafında, o cümlədən heyvandarlıq məhsullarının istehsalında artım əldə edilməsində mühüm rol oynayıb. 2000-ci ildə rayonda 10930 iribuynuzlu malqara, 68568 xırdabuynuzlu heyvan saxlanılırdı. 1 oktyabr 2015-ci il tarixə isə rayonda iribuynuzlu malqaranın sayı 14 min 956, xırdabuynuzlu heyvanların sayı isə 95 min 246-ya çatdırılıb. Bütün bu əldə edilən nəticələr muxtar respublikanın ərzaq təhlükəsizliyi sahəsində həyata keçirilən uzunmüddətli layihələrin bəhrəsidir.

### *Məskunlaşmanın artması sosial rifahın göstəricisidir*

Muxtar respublika rəhbərinin doğma diyarımızın iqtisadi inkişafının yeni mərhələsində həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərindən biri də əhalinin pul gəlirlərinin artmasına, sosial yaşayış imkanlarının yaxşılaşmasına nail olmaqdan ibarətdir. Bunun nəticəsidir ki, son illərdə muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da sakinlərin rifah halının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür, sosial sferada bir sıra tədbirlər həyata keçirilir. Bu və ya digər tədbirlər əhalinin məskunlaşmasına da öz müsbət təsirini göstərir. Buna sübut olaraq demək olar ki, əgər 2003-cü ildə əhalinin şəxsi vəsaiti hesabına rayon ərazisində cəmi 0,5 min kvadratmetri əhatə edən şəxsi evlər tikilmişdisə, 2015-ci ilin yanvar-sentyabr aylarının göstəricilərinə görə rayonda əhalinin şəxsi vəsaiti hesabına tikilən evlərin ərazisi 26,5 min kvadratmetri əhatə edir.


Kırna kəndi

### *Rayon sakinləri görülən işlərdən minnətdarlıqla danışırlar*

Uca zirvələrin əhatəsində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən Gal kəndinin ağsaqqalı Qadir Həsənovla, kənd sakinlərindən Tahir Abdullayevlə yenicə istifadəyə verilən məktəb binası, kənd və xidmət mərkəzləri önündə söhbət edirik. Həmsöhbətlərim deyirlər ki, sovetlər dövründə bu kəndlər muxtar respublikanın, necə deyərlər, ən əlçatmaz, ünyetməz yerlərindən olub. Heç vaxt düşünməyiblər ki, nə zamansa bu kənddə də yeni binalar olacaq. Ötən günlərdə burada yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, yolun abadlaşdırılması hər kəsin böyük sevincinə səbəb olub. Bütün bu görülən işlərə görə kənd sakinləri adından dövlətimizə, muxtar respublikanın rəhbərinə minnətdarlıqlarını dilə gətirən həmsöhbətlərim göstərilən qayğının müqabilində hər kəsin səylə çalışacağına əminliklərini ifadə etdilər.

Bənəniyar kənd tam orta məktəbinin müəllimi Ələviyyə Nuri ilə bu ilin fevral ayında istifadəyə verilən məktəbdə həmsöhbət olduq. O dedi ki, 2015-ci il Bənəniyar kənd tam orta məktəbinin pedaqoji kollektivi və şagirdləri üçün xüsusilə əlamətdar olub, köhnə, uçuq-sökük kənd məktəbinin yerində yeni, ən müasir tələblərə cavab verən məktəb binası inşa edilib. Üçmərtəbəli, 666 şagird yerlik məktəb binasında 4-ü elektron lövhəli olmaqla, 37 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter və 2 şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları var. Xatırladım ki, bu tikili muxtar respublikada inşa edilən yüzlərlə məktəbdən yalnız biridir. Bütün bu görülən işlər bir daha əmin olmağa əsas verir ki, muxtar respublika təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək. Çünki bu inkişafın təməlində təhsilin inkişafına göstərilən diqqət, həyata keçirilən ardıcıl və məqsədyönlü işlər dayanır. Çalışacağıq ki, görülən işlərə əməli işimizlə cavab verək, gələcəyimiz olan uşaqları hərtərəfli biliyə malik, vətənpərvər nəsil kimi yetişdirək.

Əlincə kənd sakini Novruz Talıbovla söhbətimiz isə kənddə inşa edilən sosial obyektlərin sakinlərə faydası barədə olur. O deyir ki, 2014-cü ilin fevral ayında burada yenidən qurulan məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi sakinlərin ürəyincə olub. Bu gün Əlincə Kənd Mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, mədəniyyət evi fəaliyyət göstərir. Bütün bu qurumlar kənd sakinlərinin yaxşı şəraitdə yaşamasına və işləməsinə, onların qarşılaşdığı problemlərin elə yerindəcə həllinə xidmət edir. Əvvəllər kənddə yeni bina inşa edilməsindən söhbət gedə bilməzdi. Ancaq indi hər şey dəyişilib, yeni binalar salınıb, yollar abadlaşdırılıb. Bütün bu görülən işlər isə kənd sakinlərinin kəndin işıqlı sabahına olan inamını, gördüyü işə, torpağa bağlılığını artırıb. İndi hər bir xırda çətinlik üçün rayon mərkəzinə getməyə ehtiyac qalmayıb. Kəndli üçün lazım olan hər şey yaxın, əlçatandır.

Culfa şəhərinin sakinlərindən Hüseyn Həbibov deyir ki, tarixi abidələr, çoxsaylı maddi-mədəniyyət qalıqları Azərbaycanın uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, eyni zamanda xalqımızın milli pasportu hesab edilə bilər. Bu abidələr Azərbaycan xalqının tarixini özündə yaşadan zəngin informasiya mənbəyi olmaqla yanaşı, xalqımızın bu torpaqların köklü sakinləri olduğunu danılmaz faktlarla sübuta yetirir. Bu mənada, rayon sakinlərinə dövlətimizin ən böyük töhfələrindən biri də Əlincəqala və Gülüstan abidələrinin bərpasıdır.

***Bəli, son illərdə Culfa rayonu dövlət qayğısının ünvanına çevrilib. Bütün bu görülən işlər, əldə edilən uğurlar rayon sakinlərini ruhlandırır, onları yeni-yeni nailiyyətlər əldə etməyə sövq edir. Sakinlər üçün yaradılan potensial imkanlar, insanlarda qurub-yaratmağa böyük həvəsin olması bunu deməyə əsas verir ki, rayon daha da inkişaf edib çiçəklənəcək, onun sakinləri gələcəyə daha inamla addımlayacaqlar.***

Səbuhi HÜSEYNOV




# Xalq yaradıcılığı







*“Xalq yaradıcılığımız öz kökünü ən qədim dövrlərdən götürür. Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar xalq yaradıcılığının mühüm qolu olan el sənətkarlığının 5-7 minillik inkişaf dövrü keçdiyini sübuta yetirir. Qədim xalq sənəti sahələri olan dulusçuluq və daşişləmə Neolit, metalişləmə isə Eneolit dövründən məlum idi. Naxçıvanda əkinçiliyin və maldarlığın intensiv inkişafı sənətkarlığın da inkişafına təsir göstərmiş, mədəni tələbatın artması müxtəlif bəzək əşyalarının düzəldilməsi, hətta əmək alətlərinin, məişət avadanlıqlarının, silahların müəyyən hissələrinin gözəl bədii tərtibatla hazırlanması ilə nəticələnmişdir. Naxçıvan Muxtar Respublikasının indiki və tarixi ərazilərində yaşamış əcdadlarımızın sosial həyat tərzi, dini ideoloji baxışları, inamları və adət-ənənələri bu dövrün sənətkarlığında öz əksini tapmışdır”.*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin***
***“Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında”***
***7 fevral 2009-cu il tarixli Sərəncamından***

## Naxçıvanda xalq yaradıcılığının inkişafına göstərilən dövlət qayğısı bəhrələrini verməkdədir

**Qədim diyarımız Naxçıvanda minilliklər boyu təşəkkül tapan adət-ənənələr, xalq yaradıcılığı örnəkləri, milli dəyərlər xalqımızın ən qiymətli milli sərvətidir. Naxçıvanlılar bu dəyərlərə həmişə böyük ehtiramla yanaşmış, onların qorunub-saxlanılmasını, təbliğini, gələcək nəsillərə ötürülməsini özlərinin vətəndaşlıq borcu saymışlar.**

Xalq yaradıcılığının yaşadılması, təbliği üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il fevralın 7-də Sərəncam imzalamışdır. Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi ilə əlaqədar həmin il fevral ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, müşavirədə müxtəlif aidiyyəti qurumların bu sərəncamla bağlı fəaliyyət istiqamətləri göstərilmişdir.

Ötən dövr ərzində bu istiqamətdə görülən işlər sistemli xarakter almışdır. Hər il Novruz bayramında Xalq yaradıcılığı günlərinin keçirilməsi milli dəyərlərimizin, xalq sənətkarlığının təbliğinə və yaşadılmasına xidmət edir.

AMEA Naxçıvan Bölməsi tərəfindən hazırlanmış üç clddə “Naxçıvan folkloru antologiyası”, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanmış “Naxçıvan teatrının salnaməsi”, nazirliyin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzi tərəfindən hazırlanmış “Naxçıvan milli geyimləri” və “Naxçıvan tikmələri”, Prezident təqaüdçüsü Əkrəm Məmmədlinin “Naxçıvan-Şərur el yallıları” kitabları nəşr olunmuş, Şərur yallılarından ibarət disk buraxılmışdır.

Folklorun aparıcı qolunu təşkil edən ozan-aşıq yaradıcılığının geniş tətbiq olunması, Naxçıvanda aşıq poeziyasının inkişaf mərhələlərinin araşdırılması davam etdirilmiş, xalq mahnı və rəqslərinin sistemli şəkildə təbliği, unudulmuş mahnı və rəqslərin bərpa olunması, onların aşkar edilib nota köçürülməsi, həmin nümunələrin folklor rəqs kollektivlərinin repertuarlarına daxil edilməsi və qədim xalq çalğı alətlərində ifaların nümayiş etdirilməsi sahəsində müvafiq tədbirlər görülmüş, muxtar respublikanın ayrı-ayrı bölgələrindən toplanan “Sələsüz yallısı”, “Cənənbər yallısı”, “Loliqi”, “Ağır yallı”, “Xanağa yallısı”, “Arıncı”, “Zülfanı” yallıları, “Naxçıvan”, “Naxçıvan gülü” saz havaları nota salınmışdır. Bu tədbirlərin davamı kimi muxtar respublikada yaşayan peşəkar və həvəskar aşıqlar haqqında məlumat bazası yaradılmış, 2009-cu il dekabrın 22-də Naxçıvan Aşıqlar Birliyinin təsis konfransı keçirilmiş və Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlamışdır.

Muxtar respublikanın mədəniyyət evlərində yeni folklor kollektivlərinin yaradılmasına diqqət artırılmış, Şahbuz rayonunun Qızıl Qışlaq, Kükü, Güney Qışlaq, Aşağı Qışlaq, Kolanı kənd mədəniyyət evlərində və Badamlı qəsəbə mədəniyyət evində yeni yallı kollektivləri, Culfa rayonunun mədəniyyət müəssisələrinin kollektivlərindən ibarət “Xəzinə”, Culfa şəhər, Kırna və Qazançı kəndlərində “Gülüstan”, “Xonça” və “Əlincə” adlı yeni folklor kollektivləri, Kəngərli rayonunun Qarabağlar kənd mədəniyyət evinin nəzdində qızlardan ibarət “Gülümey” folklor qrupu, Babək Rayon Mədəniyyət Evində “Şəms” muğam ansamblı, “Köçəri” və “Tirmə şal” yallı qrupları, uşaq musiqi məktəblərinin müəllim və şagirdlərindən ibarət “Aşıqlar” qrupu yaradılmış, Vayxır kənd mədəniyyət evində “İrs”, Kültəpə kənd mədəniyyət evində isə “Buta” yallı qrupları təşkil olunmuşdur.

Naxçıvan Dövlət Universitetində xalq çalğı alətləri orkestri, Naxçıvan Musiqi Kollecində qədim xalq çalğı alətləri ansamblı yaradılmış, unudulmuş qədim musiqi alətlərinin bərpası işinə başlanmışdır. Peşəkar musiqi kollektivlərinə, folklor kollektiv və qruplarına, bədii özfəaliyyət kollektivlərinə milli geyim dəstləri verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikanın hər bir rayonunda xalq teatrlarının fəaliyyətinin təmin edilməsi barədə tapşırığı ilə Babək və Şahbuz Rayon Mədəniyyət evlərinin dram dərnəklərinə uzunmüddətli səmərəli fəaliyyətinə və yaradıcılıq uğurlarına görə xalq teatrı statusu verilmişdir.

Milli mətbəx nümunələrimiz maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi xalqımızın tarixini, etnoqrafiya və bədii xüsusiyyətlərini özündə əks etdirir. Bu sahədə də xeyli iş görülmüş, tədqiqat materialları toplanmış, sorğu-metodik vəsait hazırlanmışdır. Milli mətbəxin inkişafı ilə bağlı tədbirləri sistemləşdirmək və vahid mərkəzdən idarə etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi yaradılmış, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin hərtərəfli fəaliyyəti təmin olunmuş, mərkəz tərəfindən hazırlanmış “Naxçıvan mətbəxi” kitabı oxuculara təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində 2009-cu ilin iyun ayından başlayaraq təşkil edilən xalçaçı kursunu 67, toxuculuq kursunu 21, misgərlik kursunu 9, keçəçi kursunu 11, qalayçı kursunu 9, ağac üzərində oyma kursunu 8 nəfər bitirmişdir.

Qədim tarixə malik olan xalçaçılığın inkişafını təmin etmək məqsədilə adıçəkilən nazirlik tərəfindən “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” layihəsi həyata keçirilmiş, muxtar respublikanın bütün rayonları üzrə bu sahə ilə məşğul olanlara dəzgahlar və xalça toxumaq üçün lazım olan materiallar verilmişdir.

Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin öyrənilməsi, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkil olunması məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilmiş, xalq yaradıcılığı ilə məşğul olan sənətkarlar haqqında məlumat bazası yaradılmışdır.

2012-ci ildə, “Milli dəyərlər ili”ndə muxtar respublikada beynəlxalq rəsm, folklor, muğam və xalq teatrları festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr keçirilmişdir.

***Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı sahələrinin inkişafına dövlət qayğısı bəhrələrini verməkdədir. Çünki xalqımızın müstəqillik yoluna qədəm qoyduğu indiki şəraitdə xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikanın aidiyyəti qurumları bu istiqamətdə öz fəaliyyətlərini uğurla davam etdirirlər.***

✍ **Muxtar MƏMMƏDOV**

## Xalq yaradıcılığının yaşadıldığı ünvan

***Bu gün xalq yaradıcılığı nümunələri adlandırdığımız minillərin sınağına sinə gərmiş sənətlər və bu işlə məşğul olan sənətkarların yaratdıqları əcdadlarımızın bizə mirası, vəsiyyəti, öyüd-nəsihətidir. Təbii ki, bu mirasa sahib çıxmaq, vəsiyyətə əməl etmək, öyüd-nəsihətə qulaq asmaq bugünkü nəslin mənəvi borcudur. Xalqımız yaradıcı xalqdır. Bunu günümüzə gəlib çatmış, xalqın zəngin təfəkkürünün və təxəyyülünün məhsulu olan xalq yaradıcılığı nümunələri, yazılı və şifahi xalq ədəbiyyatı inciləri sübut edir.***



Naxçıvan qədim yaşayış məskənlərindən biridir.Müasir dövrümüzdə aparılan arxeoloji qazıntılar nəticəsində torpağın dərin qatlarından çıxarılan maddi-mədəniyyət nümunələri, Gəmiqaya təsvirləri, bənzərsiz tarixi abidələr bu torpağın insanlarının böyük yaradıcı zəkaya malik olduğundan, müxtəlif sənət növlərinin məhz bu torpaqda yarandığından xəbər verir. Məhz bu torpaqda insanlar torpağı şumlayıb əkəndə və məhsul götürə bilməyəndə bəhrəsiz gilli torpağı suyla yoğurub məişət əşyaları, uzaq məsafələrdən su gətirmək üçün novlar düzəldiblər. Beləcə dulusçuluq inkişaf etməyə başlayıb.

Qışın şaxtasına, yayın istisinə dözməyib qurumuş ağacı bu torpağın insanları yandırmağa tələsməyib, bu ağac insan əlində işlənərək əşyalara çevrilib. İnsanlar gördükləri işdən zövq alaraq daha yaxşı sənət nümunələri yaratmağa başlayıblar. Ağacyonma sənəti də beləcə təşəkkül tapıb. İnsanlar hər hansı bir bitkinin şirəsinin dəriyə saldığı rəngləri də tez yuyub təmizləməyə tələsməyiblər. Düşünüblər ki, bu rənglə yunu boyamaq olar və bu boyalı iplərin bir-birinə calanması nəticəsində isti, al-əlvan libaslar ortaya çıxar, bu libaslar onları qışın şaxtasından, sazağından qoruyar. Bəli, bu torpaqda bir çox sənətlərin təşəkkül tapmasında əsas amil təbiət olub. İnsan yaradıcılığının ən böyük müəllimi elə bu diyarın təbiətidir.

Xalq yaradıcılığımız öz kökünü ən qədim dövrlərdən götürür. Qədim xalq sənətkarlığının mühüm sahələrindən olan dulusçuluq Naxçıvan ərazisində eradan əvvəl 7-ci 6-cı minilliklərdə yaranıb, Eneolit dövründən başlayaraq dulus çarxlarında gil qab hazırlanması və xüsusi kürələrdə bişirilməsi geniş yayılıb. Naxçıvan eyni zamanda dünyanın ilk metalişləmə ocaqlarından biri olub. I Kültəpənin ən qədim mədəni təbəqəsindən müxtəlif mis-mərgümüş, nikel-mərgümüş qatışığı olan alətlər və bəzək nümunələri əldə edilib. Ordubad rayonundakı Plovdağ nekropolundan tuncdan hazırlanmış sancaqlar, I Kültəpədən isə Tunc dövrünə aid bıçaq və sancaqlar tapılıb. Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar Naxçıvanın qədim sakinlərinin sümükdən və daşdan da əmək alətləri və bəzək əşyaları hazırladıqlarını göstərir. Sonrakı dövrlərdə sənətkarlıq daha da inkişaf edib, xalq sənətinin ağacişləmə, misgərlik, zərgərlik, ipəkçilik, boyaqçılıq, papaqçılıq, dabbaqlıq, dülgərlik, toxuculuq, xüsusilə də xalçaçılıq kimi sahələri geniş yayılıb.

Bu gün muxtar respublikada milli sənət növlərinin yaşadılmasına və inkişaf etdirilməsinə ciddi diqqət yetirilir. Naxçıvan şəhərində xalq yaradıcılığı emalatxanasının yaradılması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində atılan növbəti addım olub. Hazırda emalatxanada xalçaçılıq, dekorativ-tətbiqi sənət, ağac üzərində oyma, dulusçuluq kimi xalq yaradıcılığı sahələri ilə məşğul olan sənətkarlar fəaliyyət göstərir.

Artıq üç ildir ki, emalatxana həm də xalçaçıların ixtiyarına verilib. Burada hanalar quraşdırlıb, emalatxana lazımi avadanlıqlarla təchiz edilib. Xalçaçı qızlardan Xeyrənsə İsmayılova, Pəri Nəbiyeva, Gülnar Məmmədova, Çimnaz Qafarova, Leyla Əliyeva və başqaları burada müxtəlif ölçülərdə xalçalar toxuyur, Naxçıvan çeşnilərinə və süjetli xalçalara üstünlük verirlər. Xalçaçılar daim öz ustalıqlarını və peşəkarlıqlarını artırır, bu sənətdə yeniliklər edir, müxtəlif kurslarda iştirak edirlər. Xalçaçı ustalardan Pəri Əliyeva deyir ki, milli xalçaçılıq sənətimizin ənənələrini qoruyub yaşadır və inkişaf etdirirlər. Bu illər ərzində ustalar xalqımıza məxsus sənətin incəliklərini özündə təcəssüm etdirən əl ilə toxunan ən nadir xalça nümunələrini ərsəyə gətirməklə onların əsl mənsubiyyətini təsdiqləyiblər.

“Təbiət ən yaxşı sənətkardır”, – deyirlər. Çünki ondakı cansız daş parçası da, yamyaşıl, naxış-naxış yarpaqlardan süzülüb düşən bir yağış damlası da, bir ağac tikəsi də böyük ustalıqla hazırlanmış sənət incisi kimi insanoğlunu daim valeh edib. Növbəti görüşüm məhz bu incəlikləri dərindən duyan, quru ağacdan sənət naminə ustalıqla istifadə etməyi bacaran xalq sənətkarları, ağacoyma ustaları Akif Həsənov və Afət Əhmədova ilə olur. Onu da deyim ki, onların hər ikisi “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif olunublar. Ayrı-ayrı emalatxanalarda işləyən müsahiblərim bildirdilər ki, yaradılan şərait bu sənət növünü yaşatmağa və inkişaf etdirməyə tam imkan verir. Dövlətimiz tərəfindən hər cür şəraitlə təmin olunublar. Göstərilən qayğıdan ruhlanaraq yeni-yeni nümunələr yaratmağa səy göstərir, sərgilərdə və el bayramlarında iştirak edir, əl əməyi, göz nuru olan məhsulları nümayiş etdirirlər.

*Burada olarkən dekorativ əl işləri, rəssamlıq və dulusçuluq emalatxanalarında da olduq, ustalarla söhbət etdik. Naxçıvanqalada təşkil ediləcək sərgiyə hazırlaşan ustalarla söhbət zamanı bildirdilər ki, muxtar respublika rəhbəri milli dəyərlərin yaşadılmasına yüksək dərəcədə himayəçilik və qayğı göstərir. Odur ki, xalq yaradıcılığını yaşadan el sənətkarları böyük ruh yüksəkliyi ilə çalışır, yeni-yeni uğurlar qazanırlar.*

✍ **Səbuhi HÜSEYNOV**



# Yeni aləmlərin sirrini açmaq sevdasıdır
## xalça toxumaq

*İlmələr vurulur, naxışlar yaranır*

Xalqımızın həyat və məişətini əks etdirən xalq yaradıcılığının ən zəngin və orijinal nümunələrindən, eyni zamanda ən çətin sahələrindən biridir xalçaçılıq sənəti. Min illərdən üzübəri bu sənətin biliciləri – ağbirçək nənələrin, anaların əlinin sığalı ilə yüzlərlə, minlərlə xalçalar ərsəyə gəlib ki, həmin xalçalar bu gün əvəzsiz sənət əsərləridir.

*Naxçıvanın tarixi nə qədər qədimdirsə, xalçalarının da tarixi bir o qədər qədimdir*

Doğma diyarımız Naxçıvanda bir çox xalq yaradıcılığı, xalq sənətkarlığı sahələri kimi, xalçaçılıq sənəti də tarixən geniş yayılıb. Xalçalara vurulan hər ilmənin özü belə tarix yazıb. Ayrı-ayrı bölgələrimiz kimi, Şahbuz rayonunda da bu sənətə maraq yüksək olub. Şahbuz rayonunun kəndlərində, əsasən, payız, qış aylarında az qala hər bir evdə hana qurular, xalça toxunardı. Müsahibim Şahbuz rayonunun Kükü kənd sakini Gülxanım Quliyevadır.

Həmsöhbətim ömrünün yarıdan çoxunu xalça toxumaqla keçirib. Gülxanım nənə deyir ki, Şahbuz rayonu sənətkarlıq məktəbi kimi tanınıb. Sənətkarlıq növlərindən əksəriyyəti indi də var. Bunlardan biri də xalçaçılıqdır. Bizdə çox qədimdən xalçaçılıqla məşğul olublar. Nənəm özündən əvvəlkilərdən eşitdiklərini bizə danışar, anam nənəmdən öyrəndiklərini ilmələrə köçürər, bizsə o naxışlara heyran-heyran baxardıq. Bu sənətin sirlərini sonra mən öz qızlarıma öyrətdim.

Gülxanım nənə dedi ki, əllə toxunan xalçaların yerini heç nə vermir: "Onlardakı gözəllik, istilik başqa xalçalarla müqayisə oluna bilməz. Yun xalçalar sağlamlığa xeyirdir. Bu sənətdən başı çıxan adamlar bilirlər ki, yun xalça olan evdə toz olmur. Yun xalça tozu özünə çəkdiyindən otağın havası həmişə təmiz qalır. Bir də ki təbii boyalarla rənglənmiş iplərdən toxunan xalçalar çox möhkəm olur".

*Xalçaçılığın inkişafına diqqət artırılıb*

Muxtar respublikamızda milli dəyərlərə, xalq sənətkarlığına daim hərtərəfli qayğı göstərilir. Xalçaçılıq sənətinin öyrənilməsi və təbliği sahəsində də bir çox tədbirlər həyata keçirilib. Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi yaradılıb, Naxçıvan şəhərindəki xalq yaradıcılığı emalatxanasında xalça toxunması təşkil olunub. Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kursları açılıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli layihə həyata keçirilib.



Növbəti həmsöhbətimi oxucularla tanış etmək üçün yol aldım "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasına. Ömrünün 25 ilini xalçaçılıq sənətinə həsr edən, xalq yaradıcılığı emalatxanasında xalça ustası kimi çalışan Həcər Hümbətova bizimlə söhbətində bildirdi ki, xalça yaxşı alınanda xalçaçının üzü gülür. Bu, elə bir sənətdir ki, sənin əhval-ruhiyyən o dəqiqə ilmələrə sirayət edir.

*Bir-birindən gözəl ilmələrlə ilk görüş*

O gözünü açandan evlərində anasının xalça toxuduğunu görüb və rəngarəng ilmələrin sehrinə düşüb. Anası ilə yanaşı, bacısı da xalça toxuyub. Xalçaların əhatəsində böyüyəsən, xalçaçı olmayasan? Bu, çox çətin olardı. Həcər xanım xalça toxumağa həvəsi və sevgisinin nə vaxt yarandığını xatırlamır belə: "Xalçaçılıq ən qədim sənətlərimizdən biridir. Naxçıvanda ta qədimdən, demək olar ki, hər adamın evində xalça toxunar, hər ailədə azı bir xalçaçı olardı. Gözümü açandan həmişə evimizdə anamın, bacımın xalça toxuduğunu görmüşəm. Elə uşaqlıqdan onların xalça toxuduqlarını görə-görə bu sənətə sevgim yaranıb. Onların toxuduqları xalçalara tamaşa etməyi çox xoşlayırdım. Bir gün baxdım ki, artıq mən də ilmə vurub, naxış salıram".

*Hər bölgənin öz ilməsi, öz naxışı var*

Həmsöhbətim deyir ki, hər bölgənin öz xüsusiyyəti var və elə ona görə də xalçalar bir-birindən fərqlənir. O, əksər xalça qrupuna aid xalçalar toxumasına baxmayaraq, daha çox Naxçıvan xalça məktəbinə aid xalçalar toxuyur. Çeşniləri dəqiqliklə, xırdalıqlarla işləmək lazım gəlir. Çünki bu qrup xalçalarda ilmə sayı çox olur. Süjetli xalçalar daha çox dəqiqlik tələb edir. Ancaq mənə Naxçıvan xalçaları o qədər yaxındır ki, heç bir çətinlik çəkmirəm. Burada biz bəzən rəssamın verdiyi rəsmlər, bəzən isə qədim xalça çeşniləri əsasında toxuyuruq. Hazırda Dədə Qorqudun portret-xalçasını işləyirəm. Portret janrı daha çətindir. O mənada ki, hər insanın cizgiləri fərqlidir. Ona görə də insan simasını ilmələrə işləmək asan deyil. Bunu ancaq bir rəssamla birlikdə işləmək lazımdır. Gənc xalça rəssamı Məhəmməd Hüseynov bu işdə bizə çox kömək edir. Hazırkı portreti də o işləyib və biz onun əsasında xalçanı toxuyuruq.

***Haşiyə:*** Həcər xanımla söhbətimiz zamanı gənc xalçaçı rəssam Məhəmməd Hüseynov da xalça ilə maraqlanmaq üçün emalatxanaya gəldi. Məhəmməd Hüseynov deyir: "Mən əvvəldən bu işə maraqlı idim. Çox ölkədə olmuşam, hara getmişəmsə xalça toxuyanların işlərinə saatlarla tamaşa etmişəm. Bu, çox incə sənətdir. Mən hər hansı portreti çəkməzdən əvvəl xalçaçı ilə görüşürəm. Fikir mübadiləsi vacibdir. Hansı iplə işləyəcək, ilmə sıxlığını necə götürəcək, onları öyrənirəm. Bunlar çox vacib məsələlərdir. Nəticənin zövqoxşayan olması üçün hər gün ən azı bir dəfə emalatxanaya baş çəkir, vəziyyəti öyrənirəm".

*Xalça toxumaq da övlad böyütmək kimidir*

Həcər xanım bizə xalçanın toxunması prosesindən də danışdı. Onun sözlərinə görə, xalçanın toxunmasında bütün mərhələlər həm önəmli, həm də məsuliyyətlidir. Bu zaman toxucudan maksimum diqqət tələb olunur: "Xalçanı toxumağa başlayanda ilmələrdən sünbül toxunur. Bu zaman çox diqqətli olmaq lazımdır. Çünki sünbülü nə qədər diqqətlə və dəqiqliklə toxusaq, xalçanın ardı da eyni dəqiqliklə toxunacaq. Xalça toxuyan zaman orta ilməni tapmaq çox vacibdir. Əgər bir ilməni səhv vurdunsa, o hissəni sökməyə məcbursan. Bu həm əhval-ruhiyyəni korlayır, həm də işi gecikdirir. Ümumiyyətlə, bu sənət səbirli olmağı sevir. Xalçanın sonuna yaxın həyəcanım daha çox artır. Çünki artıq xalçanı təhvil verəcək anıdır. Mənim üçün xalça toxumaqla övlad böyütmək eynidir. O qədər böyük sevgi ilə, qayğı ilə vururam ilmələri".

Ümumiyyətlə, hər bir sənət ona dəyər verən insanların zəhməti hesabına yaşayır, inkişaf edir. Gərgin əmək tələb edən xalçaçılıq sənəti də ona bigənə qalmayan insanların qayğısı və diqqəti, milli dəyərlərimizə göstərilən qayğının sayəsində inkişaf edib. Son illər xalça toxuyanların sayı xeyli artıb. Bu sənətə sevgi, maraq yaranıb. Dövlətimiz çalışır ki, həm bu sənəti yaşatsın, həm də onun sirlərini gələcək nəslə ötürsün.

Bir sözlə, xalçaçılıq sənəti milli sərvətimizdir. Onu qorumalıyıq. Hər bir insan bu sənətə ürəyində məhəbbət bəsləsə, onda xalçaçılıq yaşayar, əsrlərdən əsrlərə ötürülər. Xalça məişətimizin bir hissəsi olmaqla bərabər, həm də tariximiz və incəsənətimizdir. Ona diqqət və qayğı göstərmək hər birimizin borcudur.

**Gülnar YÜZBAŞIYEVA**

# Xalq oyunları

***Xalqımızın min illərdən bəri süzülüb gələn ən gözəl milli dəyərlərindən biri də xalq oyunlarıdır. Müasir dövrün yetkin nəslinin nümayəndələri bu oyunları, yəqin ki, çox yaxşı xatırlayırlar. Xalq oyunları bizə mehribanlığı, səmimiliyi, birliyi, cəsarəti, ən əsası isə əsl uşaq kimi böyüməyi öyrədib. İndi də o illərin xatirələri canlandıqca oyun zamanı saatların su kimi axıb keçməsi, həyətbacanı başına alan şən səs-küy, cəmi bir neçə dəqiqə çəkən umu-küsülük, dəcəlliklər yada düşür.***

Uşaqların hal-hazırda meyillərini saldıqları əksər kompüter oyunları onlarda bir çox zərərli keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Bu oyunlar, ilk növbədə, uşaqların milli dəyərlərdən uzaqlaşmasına səbəb olur. Digər bir tərəfdən isə elektron oyunlara meyillilik uşaqları sağlam mühitdən, öz həmyaşıdları ilə birgə əylənməkdən kənarlaşdırır. Onlar günün böyük bir hissəsini ya kompüter qarşısında, ya da onlar üçün o qədər də faydalı olmayan cizgi filmlərini izləməklə keçirirlər. Bu isə uşaqlarda istər fiziki, istərsə də mənəvi çatışmazlıqlar yaradır. Böyüdükcə eqoistləşən belə uşaqların mehriban, səmimi, cəsarətli, aktiv, zəkalı olmadıqlarının şahidi oluruq. Onlar hətta oynamaq üçün çölə çıxdıqda belə, zərərli kompüter oyunlarında gördüklərini təkrarlamağa çalışır, belə gərgin oyunların təsiri altında daha çox zor tətbiq etmək istəyir, həmyaşıdlarını incidir, oyun zamanı problemlər yaradırlar.

Müasir dövrümüzün valideynləri uşaqlara, onların asudə vaxtlarını necə və harada keçirmələrinə laqeyd qalmaqla öz uşaqlıq illərinə xas maraqlı xalq uşaq oyunlarını övladlarına öyrətməyə cəhd göstərmirlər. Beləliklə də, xalq oyunlarımız unudulur, onların yerini mentalitetimizə zidd olan mənasız və heç bir faydalı keyfiyyət aşılamayan yad məşğuliyyətlər tutmağa başlayır. Axı "gizlənqaç"ı (gizlənpaç), "qəcəmədaş"ı (beşdaş), "əlimqaldı"nı (qaçdı-qovdu), "aşıq-aşığ"ı, "bənövşə"ni, "ağac-ağac"ı, "dirədöymə"ni (qayışagirmə, cızığagirmə), "ortayagirmə"ni, "yeddi ağac"ı, "palazagirmə"ni və sair başqa maraqlı oyunlarımızı necə unutmaq olar? Bu oyunların hər birində uşaqlara faydalı ola biləcək o qədər maraqlı xüsusiyyətlər var ki. Bəzilərini yada salaq. Məsələn, bir zamanlar çox məşhur olan "gizlənqaç" (gizlənpaç) oyunu. Bu maraqlı oyun zamanı bir uşaq müəyyən olunmuş yerdə əlləri ilə gözünü bağlayır, "Alma saraldı, gözüm qaraldı" deyir, digərləri isə qaçıb gizlənirlər. Gözünü bağlayan gözlərini açaraq gizlənən uşaqlardan birini tapmalıdır. Yeri müəyyən olunan uşaq həmin yerə birinci gəlsə, oyun bitir. Və həmin gözlərini yuman uşaq təkrarən gözlərini bağlamalı olur. Əks halda, birinci tapılan uşaq gözlərini bağlamaqla oyunu davam etdirir. Bu oyun uşaqlara çeviklik, zirəklik, qaydalara əməl etmək və ayıqlıq aşılayır.

Başqa bir oyun – *"bənövşə"* oyunu. Bu oyun zamanı bir-birindən 10-15 metr aralı əl-ələ verib sıra ilə üz-üzə duran iki dəstə uşaq sözlə deyişir. Sonra "bənövşə, bəndə düşə, bizdən sizə kim düşə?", "sizdən bizə adı gözəl, özü gözəl ..." deyilir. Adı çəkilən uşaq qarşı tərəfdəki əl-ələ verən dəstəni yarıb keçməklə özü ilə bir nəfəri dəstəsinə gətirməlidir. Yarıb keçə bilməsə, özü rəqib dəstədə qalır. Oyunçuları tükənən dəstə uduzmuş sayılır. Bu oyun uşaqlardan daha çox inam, fiziki güc və təəssüblük tələb edir.

*"Qəcəmədaş"* (beşdaş) oyununda isə hər iştirakçı bir əlinə altı ədəd kiçik daş yığıb, bir daşı yuxarı atmaqla ovcundakı digər beş kiçik daşı yerə tökür, sonra həmin daşı yenə yuxarı atıb, o, aşağı enənədək yerdəki daşları əvvəl bir-bir, sonra isə birlikdə yığmalıdır. Şərt yerdəkini yığmaqla yanaşı, havadakı daşı da yerə düşməyə qoymamaqdır. Sonra oyun daş yuxarı atıldıqca digər daşları ikinci əlin barmaqları arasından o yana keçirməklə davam etdirilir. Hərəkətləri dəqiq və qüsursuz icra edənlər qalib sayılırlar.

*"Aşıq-aşıq"* oyunu da maraqlı xalq oyunlarımızdandır. Bu oyun xüsusən payızda oynanılır. Yaxşı aşıq oynayanlar hətta bir metrlik məsafədən çırtma ilə öz aşığını başqa aşığa tuşlayıb vurmaqla və ya aşığı aşırmaqla udur. Aşıqlar ağır olsun deyə, bəzən içini oyub qurğuşun tökürlər. Aşığın "alçı" durması üçün onu ayaqqabının altına böyrü üstdə qoyub hamar yerə sürtməklə cilalayırlar. Yaxşı cilalanan aşıq necə atsan, "toxan" yox, mütləq "alçı" durar. Belə aşıqlara "telan" deyərdilər.

*"Dirədöymə"* (qayışagirmə) oyununda cəsarət, ağrıyadözmə, həm də cəldlik tələb olunur. İki dəstədən (3-5 nəfərlik) biri cızığın – yerə çəkilmiş geniş dairənin içərisində, digəri isə çölündə durur. İçəridəki oğlanların hər birinin ayağı altında qayış olur və onu qoruyurlar. Kənardakılar əllərindəki toqqalı qayışla içəridəkiləri vurur, ayaq altdakı qayışı ələ keçirməyə cəhd edirlər. Ağrıya dözənlər qayışı buraxmır, üstəlik, bayırdakının vurduğu qayışdan tutub onu içəri çəkməyə çalışırlar.

*"Ağac-ağac"* oyunu zamanı isə 15-20 metrlik məsafəyə ağac sancır, uşaqlar əllərindəki ağacla onu nişan alıb atırlar. Kim ağacı vurub yıxsa, o, udmuş sayılır. Bu oyun uşaqlardan iti görmə, dəqiqlik və diqqət tələb edir.

*"Əlimqaldı"* (qaçdı-qovdu) oyunu da maraqlı uşaq oyunlarımızdandır. Bu oyun zamanı püşk atılır, püşk kimə düşsə, o, uşaqların arxasınca düşür. Və əlini kimə toxundursa, oyun həmin iştirakçıya keçir. Bu dəfə ikinci uşaq digərlərinin arxasına düşür…Oyun beləcə uşaqlar yorulanadək davam edir.

Başqa bir xalq oyunumuz olan *"palazagirmə"* oyunu da "əlimqaldı"ya bənzəyir. Bu oyunda uşaqlardan birinin üzərinə palaz örtülür, başqa biri gəlib onu vurur. Əgər oyunçu onu vuranın adını düz tapsa, növbə adı tapılana keçir. Tapa bilməsə, oyunda qalır.

*Göründüyü kimi, xalq oyunlarımız çox maraqlıdır. Biz hələ onların, sadəcə, bir neçəsi haqda məlumat verdik. Nənə-babalarımızı dinləmək kifayətdir ki, bu oyunlar haqqında saatlarca danışıb söhbət etsinlər. Ancaq biz nədənsə buna laqeyd yanaşır, övladlarımızı milli dəyərlərdən uzaq mühitdə böyüdürük. Unuduruq ki, bunu müasir zaman bağışlasa da, gələcək bağışlamayacaq…*

**Arzu ABDULLAYEV**


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL ŞƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 826